# Ağdam şəhərində xəstəxana kompleksi tikilir

**İşğaldan azad olunmuş Ağdam şəhərində genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir. Keçmiş məcburi köçkünlərin doğma şəhərlərinə qayıdışı və layiqli həyat şəraiti üçün mühüm infrastruktur layihələri icra olunur, istehsal müəssisələri yaradılır, yaşayış binaları, təhsil, səhiyyə, mədəniyyət müəssisələri inşa edilir.**







AZƏRTAC 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanası kompleksinin tikildiyi ərazidə olub, inşaat işləri ilə maraqlanıb. Sahə mühəndisi Rövşən Hüseynov bildirib ki, 6,01 hektar torpaq sahəsində inşa edilən əsas xəstəxana binası zirzəmi və dörd mərtəbədən ibarətdir. Əsas xəstəxana binasından əlavə, kompleksə Yoluxucu xəstəliklər və Hemodializ korpusları, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Təcili Tibbi Yardım Stansiyası üçün binalar da daxildir.

Artıq xəstəxananın C blokunda dəmir-beton işləri yekunlaşıb. A-1, A-2, A-4, B-1, B-2, E-1, E-2 bloklarında dəmir-beton işləri davam edir, C, E-1, E-2 bloklarında hörgü işləri aparılır.

Kompleksin ərazisində həmçinin transformator yarımstansiyası, yeraltı içməli və yanğın üçün su anbarları, nəzarət buraxılış məntəqələri, oksigen məntəqəsi, təcili yardım maşınlarının dezinfeksiya meydançası, yeraltı nasos stansiyası da yaradılacaq, yaşıllıqlar salınacaq.

Tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Müalicə ocağı ən müasir tibbi avadanlıqla təchiz ediləcək.

Azərbaycan. - 2025.-4 fevral (№24).- S.8.